**Mükafatlandırma siyasəti**

**A. Mükafatlandırma sisteminin məqsədləri və əsas prinsipləri**

1. **Mükafatlandırma sisteminin əsas məqsədləri aşağıdakılardır:**

- Obyektiv maddi və qeyri-maddi mükafatlandırmanın formalaşdırılması;
- Bankdaxili fəaliyyətin stimullaşdırılması;
- Bankın əmək bazarında rəqabətə dayanıqlılığının artırılması;
- Yeni mütəxəssislərin cəlb olunması və cari ixtisaslı əməkdaşların saxlanması ilə güclü kadr potensialına sahiblənmək;
- Əməkdaşların ruh yüksəkliyinin təmin edilməsi.

2. **Mükafatlandırma sistemi aşağıda qeyd olunan prinsiplər əsasında həyata keçirilir:**

- Adekvatlıq – bazarda dəyişikliyin dinamikası və Bankın maliyyə imkanlarının nəzərə alınması;
- Balanslaşma - mükafatlandırma sisteminin nəticələrə əsaslanan və ölçülə bilən göstəricilər üzrə formalaşdırılması, fərdi və kollektiv performans arasında sağlam balansın qorunması;
- Ədalətlilik - dəqiq ölçülmüş meyarlar əsasında obyektiv qiymətləndirmə ilə işçinin əməyinin ədalətli ödənişinin aparılması və ödənişlərinin müəyyən edilməsində hər hansı bir diskriminasiyaya yol verilməməsi;
- Səmərəlilik - mükafatlandırmaya yönəldilən xərclərin Bank üçün səmərə gətirməsi;
- Uyğunluq - mükafatlandırma sisteminin əmək bazarı səviyyəsinə uyğunluğunun təmin olunması;
- Şəffaflıq – mükafatlandırma siyasəti ilə bağlı məlumatların həm işçilərə, həm də ictimaiyyətə açıqlanması.

3. **Bankda Mükafatlandırma sistemi aşağıdakılara əsasən qurulmaqdadır:**

- Bankın strateji hədəfləri;
- Bankın uzunmüddətli fəaliyyət nəticələrinə və mənfəətliliyi;
- Bankın risk iştahasına adekvat olması və izafi risk qəbulunu məhdudlaşdırması;
- Bank tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə təşviq etməməsi;
- Maraqlar münaqişəsinə yol verilməməsi.

**B. Yekun müddəalar**

- Bu Siyasətin qəbul edilməsi, ona müvafiq əlavə və dəyişikliklərin edilməsi Bankın Müşahidə Şurasının qərarı ilə həyata keçirilir.
- Siyasət qüvvəyə mindikdən sonra qanunvericilik aktlarında onun hər hansı müddəasının hüquqi qüvvəsinə təsir göstərən dəyişiklik olduğu təqdirdə ona müvafiq dəyişiklik edilir və Siyasətin qanunvericiliyə zidd olmayan müddəaları öz qüvvəsini olduğu kimi saxlayır.
- Bu Siyasətlə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən tənzimlənir.